AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

Əlyazması hüququnda

ELÇİN BƏHMAN OĞLU SÜLEYMANOV

# AZƏRBAYCANIN BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI İLƏ ƏLAQƏLƏRİNİN İNKİŞAF PROBLEMLƏRİ

İxtisas: 5310.01- «**Dünya iqtisadiyyatı**»

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Qafqaz Universitetinin «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər: -** iqtisad elmləri doktoru, professor
**Əvəz İslam oğlu Bayramov**

**Rəsmi opponentlər: -** iqtisad elmləri doktoru, professor
**Arif Şəkərəli oğlu Şəkərəliyev**

- iqtisad üzrə fəlsəfə doktoru,
**Anar Nazim oğlu Eminov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universiteti

Müdafiə 24 iyun 2015-ci il tarixdə saat 14 $^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad üzrə elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.051 - Dissertasiya şurasının iclasında olacaqdır

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 22 may 2015-cü ildə göndərilmişdir.

**D 02.051 Dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d.** **dosent M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. Qloballaşma prosesinin getdikcə dərinləşməsi milli iqtisadiyyatın dayanıqlı inkişafının təminatında beynəlxalq iqtisadi münasibətlərin həlledici mövqeyə yüksəlməsinə gətirib çıxarmışdır. Qlobal iqtisadi sistemin maliyyə arxitekturasında baş verən dəyişikliklərin intensivlik dərəcəsi artmış, beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın məzmun və mahiyyətinin milli məqsədlərə münasibətdə advekatlıq dərəcəsinin sistemli şəkildə öyrənilməsinə böyük ehtiyac yaranmışdır. II Dünya müharibəsinin bitməsi ərəfəsində ölkələrin iqtisadi və maliyyə əməkdaşlığının daha da inkişaf etdirilməsi məqsədi ilə Beynəlxalq Valyuta Fondunun, müharibənin fəsadlarını ortadan qaldırmaq üçün ehtiyac duyulan maliyyə resurslarını təmin etmək üçün Dünya Bankının yaradılması təşəbbüsü ilə Amerikanın Hempşir ştatının Bretton-Vuds qəsəbəsində BMT-nin valyuta konfransı keçirilmişdir. Konfransda valyuta-maliyyə sferasında beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və iqtisadi inkişafa şərait yaratmaq, üzv ölkələrin valyuta sabitliyinə xidmət etmək, tədiyyə balansındakı fərqliliyi aradan qaldırmaq məqsədi ilə onlara kredit və yardım vermək, bununla da beynəlxalq iqtisadi əlaqələrin qarşısını alan maneələri aradan qaldırmaq, beynəlxalq ticarət münasibətlərinə maneçilik törədən valyuta idxalı məhdudiyyətlərinin ləğv edilməsinə nail olmaq məqsədi ilə beynəlxalq maliyyə instutlarının qurulmasında beynəlxalq əlaqələrin intensivləşdirməsi mərhələsinin başlanğıcı kimi sözügedən konfransın müstəsna rolu olmuşdur. Bu konfransda yaradılması qərarlaşdırılan BVF və Dünya Bankı iqtisadi ədəbiyyatda Bretton-Vuds "ekizləri" olaraq yer aldı. Seçilmiş mövzunun aktuallığı, hər şeydən əvvəl, Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinə, bu əlaqələrin inkişaf problemlərinə müxtəlif aspektlərdən yanaşmanın ciddi maraq və əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasına yaxından kömək edən beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin milli-iqtisadi mənafelər baxımından həyata keçirilməsinin Azərbaycan cəmiyyətində birmənalı qarşılanmaması problemi mövcuddur . Belə ki, Azərbaycanın müasir iqtisadi inkişaf strategiyası təkcə xarici bazar istiqamətli iqtisadi fəaliyyətin intensivliyi baxımından deyil, bütövlükdə, milli iqtisadiyyatın perspektiv inkişafı nöqteyi-nəzərindən sistemli islahatları müəyyənləşdirməyi zəruri edir. Qloballaşma və regional iqtisadi inteqrasiya proses-

lərinin güclənməsi qlobal iqtisadi sistemin elementləri kimi çıxış edən ölkələrin iqtisadiyyatının maliyyə və valyuta-kredit sistemində əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini qaçılmaz hala gətirmişdir. Bu baxımdan istər daxili, istərsə də xarici amillərin təsiri altında ölkə iqtisadiyyatında baş verən dəyişikliklər sözügedən əlaqələrin tənzimlənməsinin konseptual əsaslarının formalaşmasında müasir yanaşmanın müəyyənləşdirilməsini əsaslandırır. Bütün bunlar dissertasiya mözusunun aktual səciyyə daşıdığını ortalığa qoyur.

**Problemin öyrənilmə səviyyəsi.**Azərbaycanın müstəqillikdən sonra beynəlxalq maliyyə təşkilatları ilə olan əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi, onun milli mənafelərin qorunub saxlanılması nöqteyi-nəzərindən inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində və iqtisadi səmərəliliyinin yüksəldilməsi yollarının axtarılıb tapılması sahəsində Ə.C.Muradov, Ş.H.Hacıyev, Ə.İ.Bayramov, Z.Ə.Səmədzadə, N.İ.Məmmədov, N.M.İmanov, A.K.Ələsgərov, R.T.Həsənov, A.Ş.Şəkərəliyev,D.Ə.Vəliyev, M.Q.Məmmədov, H.B.Rüstəmbəyov, R.M.Qasımov, İ.A.Kərimli, E.M.Hacızadə, M.A.Əhmədov, M.Y.Quliyev, A.A.Nadirov, N.M.Hümbətov, M.X.Meybullayev, G.Ə.Gənciyev, Ə.M.Həsənov, M.İ.Bərxudarov və başqa Azərbaycan alimləri geniş tədqiqat işləri aparmışlar.

Eyni zamanda iqtisadiyyat elminin görkəmli xadimləri A.Smit, D.Rikardo, K.Marks, C.Keyns, F.Xayek, M.Aller, M.Porter, M.Pebro, L.A.Slavyanskio kimi iqtisadçıların global iqtisadi sıstemin formalaşması istiqamətli əsərləri elmi ictimaiyyətin həmişə diqqət mərkəzində olmuşdur. Bundan başqa, iqtisadi ədəbiyyatda maliyyə və valyuta-kredit problemləri ilə bağlı tədqiqatları ilə tanınan görkəmli iqtisadçı alimlərdən A.Qelb, Y.Kornai, Y.A.Şişkov, Y.F.Avdokuşin, A.P.Rumyansev, V.V.Radayev və digərlərinin adlarını qeyd etmək olar.

Aparılmış tədqiqatlarda problemin ayrı-ayrı cəhətləri öyrənilmiş, elmi və praktiki baxımdan böyük əhəmiyyətə malik olan bir sıra nəticələr əldə olunmuşdur. Buna baxmayaraq Azərbaycanın müstəqillikdən sonra Beynəlxalq Maliyyə Təşkilatları ilə olan əlaqələrinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üçün kompleks qiymətləndirmə metodlarının işlənməsinə böyük ehtiyac yaranmışdır. Müasir qloballaşma şəraitində Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi və bu istiqamətdə mövcud qanunauyğunluqların dərk edilməsi, qarşıya çıxan problemlərin həlli yollarının tapılması, göstərilən

istiqamətdə elmi tədqiqatların davam etdirilməsi zərurətini yaradır. Adı çəkilən tədqiqat işlərinin əhəmiyyətini heç də azaltmadan qeyd etmək lazımdır ki, müasir dövrdə Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsinin yeni tələblər baxımından tədqiq olunması və konkret vəzifələrin müəyyənləşdirilməsi zərurəti mövzunun aktuallıq dərəcəsinin kifayət qədər yüksəldiyini ortaya qoyur.

**Dissertasiya işinin universitetin elmi-tədqiqat işi ilə əlaqəsi.** Dissertasiya işi Qafqaz Universitetinin "Dünya İqtisadiyyatı" kafedrasının "Azərbaycanın beynəlxalq maliyyə institutları ilə əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri" mövzusunda yerinə yetirdiyi elmi tədqiqat işinin planına uyğundur.

**Dissertasiya işinin məqsəd və vəzifələri**. Tədqiqat işinin məqsədi Azərbaycan və beynəlxalq maliyyə təşkilatları arasında əməkdaşlığın mövcud vəziyyətinin kompleks təhlili əsasında qarşılıqlı əlaqələrin əsas inkişaf istiqamətlərinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Bu məqsədə çatmaq üçün konkret vəzifələr müəyyənləşdirilmiş və həmin vəzifələr aşağıda göstərilmiş şəkildə məntiqi ardıcıllıqla yerinə yetirilmişdir.

- beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın formalaşması və inkişafı xüsusiyyətlərinin araşdırılması;
- beynəlxalq maliyyə təşkilatlarının verdiyi kreditlərin milli iqtisadiyyata cəlb edilməsini şərtləndirən amillər və onun formalarının təhlili;
- Azərbaycan və beynəlxalq maliyyə təşkilatları arasında iqtisadi əməkdaşlığın inkişaf dinamikasının araşdırılması;
- Qarşılıqlı əməkdaşlığın mövcud səviyyəsinin empirik qiymətləndirilməsi;
- Azərbaycan ilə beynəlxalq maliyyə təşkilatları arasındakı əməkdaşlığın inkişaf perspektivlərinin tədqiqi;
- beynəlxalq maliyyə təşkilatlarının vəsaitlərinin Azərbaycan iqtisadiyyatında rolunun artırılması imkanlarının araşdırılması;
- Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığının reallaşma mexanizminin təkmilləşdirilməsi yollarının öyrənilməsi.
- Azərbaycanın beynəlxalq maliyyə bazarında iştirakının, onun xüsusiyyət və problemlərinin konkret şəkildə səciyyələndirilməsi;
- beynəlxalq maliyyə və valyuta-kredit təşkilatları ilə olan əlaqələrin həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsi zərurətinin əsaslandırılması;

- beynəlxalq maliyyə və valyuta-kredit təşkilatları ilə qarşılıqlı əməkdaşlığın inkişaf qanunauyğunluqlarının araşdırılması;

- Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əməkdaşlığının yaranması və inkişafı mərhələlərinin müqayisəli şəkildə təhlil edilməsi, qloballaşma şəraitində onun inkişaf xüsusiyyətərinin açıqlanması;

- ölkənin beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin xarakterinin açıqlanması və onun əsas istiqamətlərinin tədqiqi;

- respublikanın beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin sistemli təhlili və bu istiqamətdə həyata keçirilmə mexanizminin faydalılığının müəyyənləşdirilməsi;

- Azərbaycan Respublikasının beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətində konkret təklif və tövsiyyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti beynəlxalq maliyyə təşkilatları və onların ölkələr üzrə əməkdaşlıq siyasətinin həyata keçirilməsi prosesidir. Tədqiqatın predmeti isə Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrindəki problemlər və onların həlli yollarıdır.

**Tədqiqatın nəzəri və metodoloji əsası**. Tədqiqat işinin nəzəri və metodoloii əsasını görkəmli tədqiqatçıların maliyyə və valyuta-kredit sahəsinə aid olan fundamental əsərləri, eləcə də beynəlxalq valyuta-kredit münasibətlərinin ümumi nəzəriyyəsi, beynəlxalq maliyyə təşkilatlarının proqnoz qiymətləndirmələri , Azərbaycan Respublikası Prezidentinin maliyyə və valyuta-kredit siyasətinin təkmilləşdirilməsi ilə bağlı fərman və sərəncamları, Milli Məclis tərəfindən qəbul edilmiş müvafiq qanun və normativ aktlar, beynəlxalq təşkilatların müvafiq rəsmi hesabat sənədləri, təşkil edir. Qarşıya qoyulmuş vəzifələrin həlli üçün tədqiqat prosesində müqayisəli təhlil və ümumiləşdirmə, sistemli təhlil metodu, tarixilik və məntiqiliyin vəhdəti, statistik , iqtisadi-riyazi üsullar və modellərdən istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**. Dissertasiya yazılarkən müxtəlif mənbələrə müraciət və istinad edilmişdir. Mövzuyla bağlı Azərbaycan, türk və ingiliscə nəşr olunan elmi əsərlərdən, informasiya bülletenlərindən, eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankının illik statistik materiallarından, beynəlxalq maliyyə münasibətlərə həsr edilmiş elmi məqalələr, dövri mətbuat və jurnallardan, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər beynəlxalq təşkilatların sorğu-məlumat xarakterli praktiki sənədləri və bu

qurumların rəsmi internet saytlarından, müxtəlif səviyyəli elmi konfransların materiallarından, beynəlxalq maliyyə əlaqələrini tənzimləyən qanunvericilik aktları və bir sıra rəsmi sənədlərdən geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi əsasən aşağıdakılardan ibarətdir:

- beynəlxalq maliyyə təşkilatları ilə olan əlaqələr, onun Azərbaycan iqtisadiyyatındakı rolu və bu münasibətlərin mahiyyətinin açıqlanmasına istinadla mövcud olan müxtəlif elmi baxışlar nəzəri cəhətdən araşdırılmış və müasir dövrün reallıqlarını da diqqətə alaraq müvafiq surətdə konseptual ümumləşdirilməsi verilmişdir;

-beynəlxalq maliyyə təşkilatları ilə olan əlaqələrin təkmilləşdirilməsi zərurəti elmi cəhətdən əsaslandırılmışdır. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda həyata keçirilən maliyyə və valyuta-kredit siyasətinin spesifik xüsusiyyətləri, eləcə də postsosialist ölkələrin beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin formalaşması və inkişaf qanunauyğunluqları aşkara çıxarılışdır;

- qarşılıqlı əməkdaşlığın təkamülü prosesi sistemli şəkildə araşdırılmaqla hər bir mərhələnin spesfik cəhətləri müəyyənləşdirilmişdir;

- qarşılıqlı əlaqələrin prioritetləri müəyyənləşdirilmiş və inkişaf proqnozu verilmiş, beynəlxalq valyuta-kredit münasibətləri sistemində əməkdaşlığın genişləndirilməsinin Azərbaycanın xarici iqtisadi fəaliyyət kompleksinin inkişafına birbaşa təsir göstərməsi empirik cəhətdən əsaslandırılmışdır;

- Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdiriliş, perspektiv gözləntilərin proqnostik qiymətləndirilməsi həyata keçirilmiş, sırf praqmatik məna daşıyan təklif və tövsiyyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işi beynəlxalq maliyyə təşkilatları ilə əlaqələr mövzusunu həm fərqli iqtisadi yanaşma metodların təhlili, həm də müasir Azərbaycan Respublikasında beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq siyasətinin müəyyənləşdirilməsi və bu əməkdaşlıqdan əldə olunan nəticələri bir bütöv şəklində araşdırılması baxımından praktiki əhəmiyyətə malikdir. Bu elmi işin nəticələrindən ali məktəblərin tələbələri, doktorantlar, müəllimlər istifadə edə bilərlər. Dissertasiya eyni zamanda, Azərbaycanın müstəqilliyini əldə etdiyi 1991- 2014-ci illər arasındakı müddət ərzində beynəlxalq maliyyə təşkilatları ilə olan əlaqələrinin təkmilləşdirilməsi siyasətini araşdıran

tədqiqatçılar üçün də elmi mənbə rolunu oynaya bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələri.** Tədqiqat işinin əsas nəticələri və irəli sürülən təkliflər 15-dən çox müxtəlif xarici ölkədə keçirilən iyirmiyə yaxın nüfuzlu beynəlxalq konfransda və iyirmidən çox respublikada keçirilən beynəlxalq elmi konfranslarda məruzə edilmiş və bu məruzələrin tam mətni konfransların nəşrlərində çap edilmişdir. Eləcə də, elmi tədqiqatlarda, habelə tədris prosesində istifadəsi öz əksini tapmişdır. Dissertasiyanın mövzusuna uyğun nüfuzlu elmi jurnallarda respublika daxilində 20, xaricində 15 məqalə çap etdirmişdir. Ümumiyyətlə, mövzu ilə əlaqəli müəllifin qirxdan çox məqalə və tezisləri ABŞ, İtaliya, Almaniya, Rusiya, İsveç, Rumuniya, Türkiyə, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, Makedonya və başqa ölkələrdə nəşr olunmuşdur. Dünyanın ən məşhur elmi tədqiqat portallarından SSRN, EconPaper, RePEc, University Library of Munich, Germany MPRA, Academia, Researchgate, Indexcopernicus, Citeulike, Scholar. google, Academic.research.microsoft, Mendeley, ORCID Web of Science Thomson Reuters, Rusiyanin Socionet və digər elmi resurs bazalarına daxil edilən yüzə yaxın tədqiqatlardan bu bazaların statistikalarına görə yüzdən çox ölkədən ikiyüz minə yaxın tədqiqatçı istifadə etmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla 182 səhifədən ibarətdir. Dissertasiya işində 19 cədvəl və 4 qrafik istifadə olunmuşdur.

**Dissertasiyanın mündəricatı**

**Giriş**

**Fəsil I. Qlobal iqtisadi sistemin nəzəri - institutsional əsasları**

1.1.Dünya iqtisadiyyatının tənzimlənməsi problemlərinə müasir baxış

1.2.Beynəlxalq maliyyə təşkilatlarının fəaliyyət mexanizmi və əhəmiyyəti

1.3.Postsosialist ölkələrin beynəlxalq maliyyə institutları ilə əlaqələrinin formalaşması və inkişaf qanunauyğunluqları

**Fəsil II. Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin kompleks təhlili**

2.1.Dayanıqlı inkişafın təminatında Beynəlxalq Valyuta Fondunun yeri və rolu

2.2.Azərbaycanin Dünya Bankı ilə qarşılıqlı əlaqələrinin inkişaf təmayüllərinin dinamikası

2.3. Azərbaycanın geoiqtisadi problemlərinin həllində digər

beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin əhəmiyyəti
**Fəsil III. Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişaf perspektivləri**
3.1.Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin müasir konseptual məzmunu və onun təkmilləşdirilməsi problemləri
3.2. Beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı funksyonal fəaliyyətin inkişaf istiqamətləri
3.3. Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişaf proqnozu
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**

## TƏDQİQATIN QISA MƏZMUNU

**1.Qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin konseptual bazasının formalaşması**. Ümumdünya iqtisadi, siyasi və mədəni inteqrasiya prosesi kimi qloballaşma müasir iqtisadi-elmi fikrin ən aktual prosesləri içərisində əsas yerlərdən birini tutur. Bir çox iqtisadi və siyasi mənbələrdə qloballaşma beynəlxalq əmək bölgüsü sistemi, iqtisadi və siyasi münasibətlər ilə bağlı olan milli təsərrüfatlar kimi başa düşülən dünya təsərrüfatının dünya bazarına birləşməsi və onların trans-milliləşdirmə və regionallaşdırma prosesi kimi şərh edilir. Bu problemə istər tarixi, istərsə də elmi-metodoloji yanaşmada fikir müxtəlifliyi mövcuddur. Sürətləndirilmiş iqtisadi və tarixi proseslərin irəli çəkilməsi üzərində öz nəzəri və konseptual fikirlərini quran inqilabi yanaşmanın tərəfdarları qloballaşmanın ilkin mərhələsində zəngin Qərb ölkələrinin kasıb ölkələrə yaxınlaşmasının mümkünlüyünü sübut etmişlər. Qeyd edilir ki, kasıb ölkələr öz milli-hökümətlərinin dünya iqtisadiyyatında və beynəlxalq münasibətlərdə baş vermiş dəyişikliklərə hazır davranmaqla dünya istehsalında öz yerlərini tapa bilərlər. Bu variantın iqtisadi məntiqinin neoliberal aspektlərində ilk növbədə iqtisadiyyatın, istehsalın, ticarətin və maliyyə sferasının transmilli qurumların sütunları üzərində qurulması təklif olunur. Bu növ iqtisadi sistemdə milli hökumətlər daima inkişaf edən sənaye sahələri arasında sadəcə vasitəçi kimi çıxış edir. Bu anlamda, ultraqlobalistik nöqteyi-nəzərdən Şimal-Cənub ənənəvi qarşıdurması öz mahiyyətini itirir, yeni beynəlxalq əmək bölgüsü sistemi onun yerində daha mükəmməl və mürəkkəb münasibətlər sistemi formalaşdırır.

Cədvəl 1.

Qloballaşmaya əsas yanaşmaların müqayisəli xarakteristikası

| Yanaşmanın prinsipal əsasları | İnqilabi yanaşma | Təkamülcü yanaşma | Skeptik yanaşma |
|---|---|---|---|
| Yeni | Qloballaşma dövrünün başlaması | Qloballaşmanın ən yüksək səviyyəsi | Ticarət bloklarının yaranması, əvvəlki dövrlərdən fərqli olaraq qlobal idarəetmənin daha da zəifləməsi |
| Əsas çalarlar | Qlobal kapitalizm, qlobal miqyasda idarəetmə | Intensiv və ekstensiv qloballaşma | Dünya 1890-cı illərə nisbətən daha az qarşılıqlı asılılıqdadır |
| Milli hökumətlərin suverenliyi | Zəifləyən və dağılan | Yenidən baxılan, rekonstruksiya olunan | Möhkəmlənən və yeni müstəvilərə qədəm qoyan |
| Qlobalaşmanın hərəkətverici qüvvələri | Azad kapital və yeni texnologiyalar | Cəmiyyəti modernizə etmək istiqamətində kompleks hərəkətlər və tədbirlər | Dövlət mexanizmləri və bazar strukturları |
| Stratifikasıyanın növləri | Köhnə düzənlərin və şəcərələrin erroziyası | Dünya düzəninin yeni arxitekturası | Cənubun marjinallaşmasının güclənməsi |
| Dominant motiv | Standartlaşma | Transformasiya və siyasi cəmiyyət | Milli maraqların reallaşdırılması |
| Qloballaşmanın konseptləşdiril-məsi | Insan davranışının təbiətinə yenidən baxılması | Regionlararası münasibətlərə yenidən baxılması | Beynəlmilləşmə və regionlaşma |
| Tarixi trayektoriya | Qlobal sivilizasiya | Qlobal inteqrasiya və eynizamanlı fraqmentləşmə (subregionlaşma) | Regional bloklar, sivilizasiyaların toqquşması |
| Nəticə | Milli-dövlətlər öz tarixi dəyərlərini, xüsusiyyətlərini itirirlər | Dövlətin qüdrəti və dünya siyasəti transformasiya olunur | Beynəlmilləşmə dövlətlərin razılığından və dünya güc nisbətindən asılı olur |

**Mənbə:** Held D. a.o. Global Transformation: Politiks, Economies and Culture. Cambridge: Polity Press, 1999. p. 10

**2.Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin kompleks təhlili.** Azərbaycanın müstəqilliyindən sonra ilk olaraq diqqət göstərdiyi məsələlərdən biri də beynəlxalq iqtisadi əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq olmuşdur. Hər şeydən əvvəl, bu təşkilatlar Azərbaycanın sərbəst bazar iqtisadiyyatı sisteminə keçidini sürətləndirməyə köməklik edəcək və keçid dövrünün, müharibə şəraitinin ortaya çıxardığı problemlərin aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaqdı.

Göründüyü kimi, kifayət qədər qısa bir müddət olan 1991-2014-cü illər bir çox islahat və yeniliklərin imza atıldığı dövr olaraq tarixə keçmişdir. Cəmiyyətin tarixi inkişaf çərçivəsində ara mərhələlərdən biri olaraq qiymətləndirilən və nəzəriyyədə bir sonrakı mərhələdə komunizm cəmiyyətinə keçilməsi nəzərdə tutulan sosial iqtisadi sistem, gözlənilmədən nəzədə tutulanın tam tərsi olan bir sistemin ortaya çıxması mərhələsi yaşanmış və postsosialist dövlətləri bir-bir müstəqilliklərini elan etmiş və bazar iqtisadiyyatına keçid mərhələsinə qədəm qoymuşlar. 1994-cü ildə ölkədə siyasi stabilliyin əldə edilməsi, zəngin neft ehtiyatlarının çıxardılması və işlənməsi ilə əlaqəli "əsrin müqaviləsinin" imzalanaraq qüvvəyə minməsi, bazar iqtisadiyyatına keçidlə huquqi bazanın qurulması istiqamətində fəaliyyətlər, beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq və bu təşkilatların Azərbaycana kredit verməyə başlaması, beynəlxalq maliyyə və iqtisadi təşkilatların proqram və layihələrindən istifadə edərək iqtisadi islahatlara imza atılması ölkəyə xarici kapital axınını artırmış, 1990-cı ildən etibarən yüksələn inflyasiyanın azalmasına nail olunmuşdur.

**3.Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə qarşılıqlı əlaqələrinin inkişaf təmayülləri.** Azərbaycan Respublikasının üzv olduğu Beynəlxalq Təşkilatlar arasında Beynəlxalq Valyuta Fondunun müstəsna yeri vardır. Azərbaycan 18 Sentyabr 1992-cı ildən etibarən BVF-nun üzvüdür. O zaman təşkilata qəbul edilərkən ilk kvotası 168.000 $ olmuş, 1999- cu ilin yanvar ayının 28-dən etibarən isə ilk kvota yenidən gözdən keçirilmiş və 220.000 $ -a qədər artırılmışdır. Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası BVF-na üzv qəbul edildikdən sonra ölkədə iqtisadi islahatların həyata keçirilməsi istiqamətində təşkilatın köməyi ilə 6 müxtəlif proqramın reallaşmasına 577,3 mln. $ ümumi məbləğdə kredit cəlb edib. Azərbaycan hökümətinin Beynəlxalq Valyuta Fondundan aldığı kredit üzrə borcların 552 mln. $ geri ödəniş, 2014-ci il yanvarın 1-nə bu quruma cəmi 15,3 mln. $ borcu qalmışdır .




**Şəkil 1. 1 yanvar 2014-ci tarixinə qədər imzalanmış kredit sazişlərinin donorlar üzrə strukturu, mln. ABŞ dollar**

Əməkdaşlıq əlaqələrinin ilkin qiymətləndirilməsi dövründə BVF-nin Azərbaycanda həyata keçirdiyi proqramların iqtisadi səmərəsi xüsusiylə 1992–1994-cü illərdə Azərbaycanın üzləşdiyi iqtisadi böhrandan çıxmaq məqsədilə BVF-nin maliyyə dəstəyi ilə aparılmış struktur islahatları proqramı tədiyyə balansının tarazlaşdırılması və iqtisadi sabitliyin təmin edilməsinə imkan vermişdir. 1995-ci ildən başlayaraq struktur islahatları çərçivəsində aparılmış sərt fiskal və monetar siyasət nəticəsində dövlət büdcəsinin kəsirinin inflyasiya mənbələri hesabına maliyyələşdirilməsinə son qoyulmuş, bu sahədə xarici maliyyə mənbələrinə üstünlük verilmiş və bununla da inflyasiya 1996-cı ildən özünün hiperinflyasiya səviyyəsindən – 6%-ə qədər aşağı düşmüş, manatın ABŞ dollarına olan məzənnəsi sabitləşmiş və real iqtisadi artıma nail olunmuşdur.BVF ilə Azərbaycan Hökuməti arasında Sazişin IV Maddəsinə uyğun olaraq Azərbaycan hökumətinə iqtisadi proqramların həyata keçirilməsinin dəstəklənməsinə təqdim edilmiş maliyyə yardımları ilə yanaşı , texniki yardım, institusional və monetar idarəetmə üzrə potensialın artırılması üzrə Azərbaycanda bir sıra sahələrdə, o cümlədən dövlət xərclərinin idarə olunması, vergi-gömrük siyasəti , mərkəzi bankın yürütdüyü monetar

fəaliyyətlərə , pul siyasəti və statistik məlumat bazası sahəsində texniki yardım göstərmişdir. Azərbaycanda makroiqtisadi siyasət və təhlillər, maliyyə proqnozlaşdırılması və proqramlaşdırılması, fiskal siyasət və idarəçilik, mərkəzi bank mühasibatlığı və bank nəzarəti sahələrində BVF tərəfindən maliyyələşdirilən təlimlərdən bəhrələnmişdir.

Beynəlxalq Maliyyə Fondu üzv ölkələrə üç istiqamətdə maliyyə vasitəsilə təmin edir və bunların hamsının ortaq məqsədi üzv ölkələrə ehtiyat valyutalarının ötürülməsidir. Həm standard, həm də güzəştli kreditlərin verilməsi zamanı maliyyələşmə, əsasən, BVF-in təşkilatı vasitəsilə təmin olunur və bunun da kredit xətlərilə oxşarlıqları var. BVF-in iri miqyaslı kredit verməsi üçün bu kredit xətlərinin istifadəsi iqtisadi sabitliyə və BVF-lə üzv ölkələr arasında razılaşdırılmış struktur islahat məqsədlərinə nail olunmasından sonra şərti xarakter daşıyır. Başqa üzvlərdən xarici valyutaların əldə olunması üçün istifadə oluna bilən Xüsusi Hesablaşmalar Hüququnu üzv ölkələrə verməklə BVF həmçinin beynəlxalq ehtiyat aktivləri də yarada bilər. Standard kredit vermə əməliyyatları başqa beynəlxalq maliyyə institutlarından fərqli olaraq (Dünya Bankı və ya regional inkişaf bankları kimi), BVF üzv ölkələrinin valyutaları və onların xarici valyutalar rezervlərinin bir hissəsi üçün saxlanılan yer rolunu oynayır.

**4. Azərbaycanın Dünya Bankı və diğər beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrininin inkişaf təmayülləri**. Dünya Bankı Qrupunu dedikdə aşağıdakı qurumlar nəzərdə tutulur: Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ,Beynəlxalq İnkişaf Assosiasiyası, Beynəlxalq Maliyyə Korporasiyası , İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik, İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz. Dünya Bankının Azərbaycan Respublikasına ayırdığı kreditlərin əsas istiqaməti ölkədə iqtisadi islahatların dəstəklənməsi, struktur dəyişikliklərin həyata keçirilməsi, yoxsulluğun azaldılması və İqtisadi Inkişaf üzrə dövlət Proqramının nəzərdə tutduğu məqsədlərə nail olunmasına yönəldilmişdir. Belə ki, Dünya Bankı Azərbaycanda struktur dəyişikliklərinin həyata keçirilməsi, maliyyə, energetika, kənd təsərrüfatı, təhsil, mədəniyyət ekologiya, səhiyyə, irriqasiya, kommunal xidmət və digər sektorlar üzrə layihələrin maliyyələşdirilməsində iştirak edir. Azərbaycan Dünya Bankı və onun şöbələri ilə çox geniş əməkdaşlıq etməkdədir. Qeyd edək ki, Dünya Bankının 1992-ci ildən üzvü olan Azərbaycan 1995-ci ildən başlayaraq kredit almağa başlamış və 2015-ci ilin ilk rübünə qədər umumi həcmi 3 milyard Amerika dollarını keçən yetmiş beş layihəyə

kredit ayrılmışdır. Bu layihələrdən qırxı artıq yekunlaşmış və digərləri isə hazırda aktivdir. Bununla da, Azərbaycan Türkiyə və Qazaxıstandan sonra Avropa və Mərkəzi Asiya regionunda ən iri kredit portfelinə malik üçüncü ölkəyə çevrilmişdir.

Dünya Bankının kredit və layihələri bankın fəaliyyət prinsipinə əsaslanaraq səhiyyə, təhsil, insan inkişafı, ekologiya, yenidənqurma və s kimi əhəmiyyətli istiqamətlərə yönəlmişdir. Bu layihələrin bir hissəsi də struktur islahatları məzmununda olmuşdur ki, bu da, ümumiyyətlə, Azərbaycanın Dünya Bankı ilə əlaqəsinin yüksələn xəttlə inkişaf etdiyini göstərir.

Cədvəl 2

Postsosialist ölkələrin Dünya Bankındakı səhm və kvotası

| **IBRD-dəki vəziy-yətləri** | **Ölkə adı** | **Bankın nizamnamə kapitalındakı səhmlərinin sayı** | **Ümumi səhmlərin sayına görə çəkisi % lə** | **Kvotası** | **Ümumi səslərin sayina görə çəkisi % lə** |
|---|---|---|---|---|---|
| 7 | Rusiya | 44795 | 2.99 | 45045 | 2.92 |
| 27 | Ukrayna | 10900 | 0.73 | 10158 | 0.72 |
| 60 | Belarusiya | 3323 | 0.22 | 3570 | 0.23 |
| 61 | Qazaxıstan | 2905 | 0.20 | 3235 | 0.21 |
| 69 | Özbəkistan | 2493 | 0.17 | 2743 | 0.18 |
| 81 | Azərbaycan | 1646 | 0.11 | 1896 | 0.12 |
| 82 | Gürcüstan | 1584 | 0.11 | 1834 | 0.12 |
| 88 | Litviya | 1507 | 0.10 | 1757 | 0.11 |
| 92 | Latviya | 1304 | 0.09 | 1630 | 0.11 |
| 93 | Moldaviya | 1368 | 0.09 | 1618 | 0.11 |
| 102 | Ermənistan | 1130 | 0.08 | 1380 | 0.09 |
| 103 | Qırğızıstan | 1107 | 0.07 | 1357 | 0.09 |
| 111 | Tacikistan | 1060 | 0.07 | 1310 | 0.09 |
| 121 | Türkmənistan | 937 | 0.06 | 1187 | 0.08 |
| 124 | Estoniya | 923 | 0.06 | 1173 | 0.08 |

**Mənbə:** http://www.worldbank.org/en/country saytına əsasən müəllif tərəfindən hazırlanmışdır

Azərbaycan Respublikasının hərtərəfli əməkdaşlıq içində olduğu iqtisadi təşkilatlardan biri də Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Azərbaycan bu təşkilata 1992-ci il 25 sentyabrda üzv olmuşdur.

Azərbaycan həm də AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr" təşəbbüsü proqramına daxil edilmişdir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətində beynəlxalq cəhdlərin əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliyyələşməsi və s. üzrə cəmləşdirmişdir.

Qeyd edmək lazımdır ki, Bankın Azərbaycandakı fəaliyyətinin 50%-i enerji sektoru, 25% maliyyə sektoru, 6%-i mikromaliyyə , 3%-i qeyri-bank təşkilatları və 5%-i koorperasiya sektoru üzrə həyata keçirilir. AYİB bir sıra bankların institusional inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə onlara maliyyə və texniki yardımlar göstərir. Yeri gəlmişkən, bank daha böyük, daha müxtəlifləşdirilmiş və daha davamlı bankların inkişaf etdirilməsi məqsədilə mövcud və yeni partnyor bankları kredit xətləri, sindikatlaşdırılmış və subordinasiyalı kreditlərlə təmin edir. Bununla yanaşı, AYİB qeyri-bank mikro-maliyyə qurumlarını, habelə lizinq və sığorta şirkətlərini də dəstəkləməkdədir. Ümumilikdə AYİB-in Azərbaycanla əməkdaşlıq dövrü ərzində 110 layihə üzrə 1,6 mlrd. dollar məbləğində vəsait ayrılmışdır ki, bundan 70 layihə maliyyə sektorunda həyata keçirilməkdədir. Ümumiyyətlə, bu günə kimi Avropa Bankının maliyyə dəstəyi ilə həyata keçirilən layihələr üzrə vəsaitlərin 44%-i enerji sektoruna yönəldilmişdir.

Azərbaycan Respublikasının hərtərəfli əməkdaşlıq içində olduğu iqtisadi təşkilatlardan biri də İslam Inkişaf Bankıdır. Azərbaycan bu iqtisadi təşkilata 1992-ci ildə üzv olaraq qəbul olunmuşdur. Azərbaycanın müstəqiliyini yeni qazanmış müsəlman bir ölkə olması İİB-nın ölkəyə investisyalar ayrılmasını təşviq etmişdir. Bankın əsas məqsədi üzv ölkələrin və müsəlman əhalinin sosial, iqtisadi inkişaflarına yardım etmək və bu ölkədə sosial iqtisadi tərəqqiyə nalil olmaqdan ibarətdir. İİB Azərbaycanda həyata keçirilən bir çox iqtisadi layihələri maliyyələşdirmək məqsədi ilə ölkəyə 300 milyon dollar həcmində müxtəlif kredit, qrant və texniki yardımlar etmişdir. Bunlara misal olaraq "Mil-Muğan kollektor kanalının tikintisi", "Xanarxı kanalının tikintisi", "Ələt-Qazməmməd yolunun tikintisi", "Mingəçevir SES-nin bərpası" və s. kimi layihələri göstərmək mümkündür.

Bir ölkənin Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının üzvü ola bilməsi üçün əsas tələb həmin ölkənin BVF üzvü olmasıdır. Buna

görə də BVF-dən ayrılan ölkələr BYİB-dən də ayrılmaq məcburiyyətindədirlər. Bank, əsasən, başqa yollarla mövcud sahələrlə kredit əldə edə bilməyəcəyi qənaətinə gəldiyi ölkələrə kredit verir. Beynəlxalq sərmayə bazarlarından borc almaq imkanına sahib olan ölkələrə prinsip olaraq kredit verilmir. Bu məqsədə yönəlmiş olaraq maliyyələşdiriləcək layihə iqtisadi, ticarət, maliyyə, idarəedici və texniki yönləriylə daha ətraflı şəkildə analiz edilir və kreditdən istifadə edəcək qurum da dərindən araşdırılır. Əlaqədar ölkənin iqtisadi vəziyyəti, xarici ödəmələr balansındakı yeniliklər və lazım olarsa siyasi vəziyyəti əsas araşdırma məqsədi olur.

Azərbaycan əməkdaşlıq etdiyi maliyyə təşkilatlardan biri olan Asiya İnkişaf Bankına 1999-cu ildə qoşulduğu vaxtdan bir milyard ABŞ dollarından çox yardım və kredit almışdır. AİB-in Azərbaycandakı fəaliyyətinə həm ictimai, həm də özəl sektorlar daxildir və hökumətin öz inkişaf strategiyasına uyğun olaraq həyata keçirilir. Ölkənin zəif kapitallaşdırılmış bank sektorunun gücləndirilməsinə və özəl infrastrukturun inkişafına kömək etməklə AİB özəl sektordakı fəaliyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Banklar kiçik həcmli kreditlər, xüsusilə də, individual sahibkarlar, kiçik və orta ölçülü müəssisələr üçün əsas mənbə olduğuna görə onların iqtisadiyyatda rolu çox əhəmiyyətlidir. Ölkənin öz borclarını qaytarmaq qabiliyyətinin yüksək olmasını və AİB-in Hökumətlə və digər tərəfdaşlarla işgüzar münasibətlərinin təkmilləşdiyini nəzərə alaraq AİB kredit proqramının səviyyəsini artırmağı nəzərdən keçirə bilər. AİB-in ölkəyə ayrıla biləcək güzəştli kreditlərinin həcmi müəyyən formul əsasında müəyyənləşdirilsə də, Azərbaycanın maliyyə vəziyyətinin qiymətləndirilməsi göstərir ki, ölkə maksimum diqqət və ehtiyatla iqtisadi və rentabelli layihələrə təyinatlı güzəştsiz şərtlərlə də borclanma səviyyəsini artıra bilər.Çünki bankın ayırdığı güzəştsiz kreditlərin faizi ölkədəkə mövcud orta kredit faizindən xeyli aşağı faiz dərəcəsi ilə təklif edilir. Lakin yenə də daha az güzəştli vəsaitə doğru keçid zamanı AİB-in proqramının sektorlar üzrə bölüşdürülməsinə düzəliş etməyi zəruri edir.Ən zəruri və iqtisadi layihələrə üstünlük vermənin daha düzgün addım olacağı qeyd etmək lazımdır.

**5.Beynəlxalq maliyyə təşkilatları ilə qarşılıqlı funksiyonal fəaliyyətin inkişaf istiqamətləri** Dünya Bankı və Beynəlxalq İnkişaf Aqentliyinin texniki və maliyyə yardımı, əsasən, ictimai sektorun idarəolunmasının keyfiyyətini və şəffaflığını artırmaq, sosial xidmətlərin yaxşılaşdırılması və ətraf mühitin idarəolunmasını təkmilləşdirmək və

iqlim dəyişikliyi gündəmini genişləndirmək üzrə yönəltməyi planlayırlar. Bununla yanaşı, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası qeyri-neft sektorunun davamlı və balanslaşdırılmış inkişafını dəstəkləyəcəklər. BMK ümumi istehsalatda və maliyyə bazarlarında, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş investisiya imkanları axtarmaqda davam edəcək.

Cədvəl 3

Azərbaycanda ÜDM-in artım tempinin proqnozları

| **Təşkilatın adı** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|
| Beynəlxalq Valyuta Fondu | 4.8 | 5.0 | 4.6 |
| Dünya Bankı | 4.9 | 5.2 | 4.1 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 4.7 | 5.0 | 4.7 |
| Asiya İnkişaf Bankı | 4.6 | 5.0 | 4.8 |

**Mənbə**: BVF, DB, EBRD, AİB ölkə statistikalarına əsasən

Azərbaycanın müstəqillik əldə etdikdən sonra beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığını üç hissəyə bölməklə araşdırma aparmaq məqsədəuyğundur:

1) beynəlxalq və regional maliyyə-kredit institutlarından, eləcə də inkişaf etmiş ölkələrin beynəlxalq səviyyəli kommersiya banklarından iqtisadi proseslərin nəzarət altına alınması üçün kreditlərin və digər maliyyə vəsaitlərinin əldə edilməsi istiqamətində əməkdaşlıq; Bu təşkilatlara BVF, Dünya Bankı, BİA, İİB, AYİB və ayrı-ayrı ölkələrin kommersiya bankları aiddir.

2) ölkənin iqtisadi inkişafının sürətləndirilməsi və həmçinin beynəlxalq iqtisadi sistemə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsi məqsədi ilə beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq; Bu təşkilatlar sırasına ilk növbədə BMT sistemində fəaliyyət göstərən qurumlar: Beynəlxalq Əmək Təşkilatı (ILO), BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatları (FAO), Beynəlxalq Kənd Təsərrüfatının Inkişaf Fondu (IFAD), Sənaye inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNIDO) və s. qurumlar daxildir.

3) cografi baxımdan eyni regionda yerləşən ölkələrlə iqtisadi əlaqələri və inteqrasiyanı gücləndirmək məqsədilə regional iqtisadi birliklərlə əməkdaşlıq; Bu cür təşkilatlara isə Müstəqil Dövlətlər Birliyi , Qara Dəniz Ölkələri Birliyi, Avropa Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Xəzər Hövzəsi Ölkələri Birliyi , GÜAM və s. daxildir.

Beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanla son illərdə əməkdaşlıq istiqamətlərinə diqqət etsək, daha çox vəsait qeyri-neft sektoruna və daha dəqiq desək sosial və sahibkarlıq sahələrinin inkişafına yönəlmişdir. Cünki iqtisadiyyatın əsas hissəsinin neft sektorundan asılı olması gələcək inkişafa təhlükə törədə bilər. Beynəlxalq təşkilatların araşdırmalarına görə Azərbaycanda indiyə qədər müxtəlif istiqamətlər üzrə ən çox layihələr həyata keçirən Dünya Bankıdır. Aparılan araşdırmalar göstərir ki, hökumət daha çox kiçik və orta sahibkarlığın inkişafı üzrə beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı davam etdirməlidir. Araşdırma zamanı sorğuda iştirak edən mütəxəssislərin 50%-i sahibkarlığın inkişaf etdirilməsi üçün daha çox sərmayənin cəlb olunmasını düşünür. Azərbaycan iqtisadiyyatının inkişaf etməsinə baxmayaraq, gələcəkdə də davamlı əməkdaşlığı vacibdir. 01 yanvar 2015-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 6,478.2 milyon ABŞ dolları, xarici dövlət borcunun Ümumi Daxili Məhsula olan nisbəti 8.6 faiz təşkil etmişdir .Borc vəsaitlərinin 7.3%-i 10 ilə qədər, 60.2%-i 10 ildən 20 ilə qədər, 32.5%-i isə 20 ildən artıq olan müddətə cəlb olunmuşdur.01 yanvar 2015-ci il tarixinə xarici borc üzrə alınan kreditlərin valyuta tərkibi aşağıdakı kimi olmuşdur: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) - 9.9 %, valyutalar üzrə isə ABŞ dolları ilə – 64.8 %, avro – 21.4%, yapon yeni – 2.1 %, İslam dinarı – 0.7 %, BƏƏ dirhəmi – 0.5 %, Səudiyyə rialı – 0.4 %, Küveyt dinarı – 0.2 %. Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrdə istifadə edilmişdir.




Şəkil 2. **Azərbaycanın xarici dövlət borcu və onun ÜDM-ə nisbətinin dinamikası**

Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı çərçivəsində beynəlxalq iqtisadi mübahisələrin tənzimlənməsi müəyyən mənada oxşardır, lakin fərqli cəhətləri də vardır. BVF , eləcə də BYİB ilə dövlət arasında beynəlxalq iqtisadi mübahisə "Beynəlxalq Valyuta Fondu haqqında" Sazişin 29-cu maddəsində, "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı haqqında" sazişin 9-cu maddəsində əks olunmuş qaydalara uyğun olaraq, formalaşdırılan beynəlxalq arbitrajda baxılmalıdır. Anoloji prosedur "Beynəlxalq Maliyyə Korporasiyası haqqında" sazişin 8-ci maddəsində "İnvestisiyaların təminatı üzrə Beynəlxalq Agentliyin yaradılması haqqında" sazişin 8-ci maddəsində də əks olunmuşdur.

Regional iqtisadi təşkilatlarda beynəlxalq iqtisadi mübahisələrin tənzimlənməsi mexanizmi universal və regionlararası beynəlxalq təşkilatlarda istifadə olunan mexanizmlərdən fərqlənir. Məsələn, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsinin 29-cu maddəsində qeyd olunub ki, təşkilata üzv-dövlətlər arasında nizamnamənin tətbiqi ilə bağlı mübahisələr yaranarkən, birinci növbədə məsləhətləşmələr keçirirlər, zərurət olduqda isə beynəlxalq iqtisadi mübahisəni təşkilatın ali orqanı olan Xarici İşlər Nazirləri Şurasına təqdim edə bilərlər. "Avropa Yenidənqurma və İnkişaf Bankının yaradılması haqqında" 29 may 1990-cı il tarixli sazişin 58-ci maddəsinə görə, sazişin müddəalarının təvsiri və tətbiq edilməsi ilə bağlı bütün məsələlər baxılmaq üçün Direktorlar Şurasına təqdim edilir. Qərar qəbul edildikdən

sonra, təşkilatın istənilən üzvü mübahisəyə yenidən baxılması üçün İdarəçilər Şurasına müraciət edə bilər. Bu halda, beynəlxalq iqtisadi mübahisələrə baxılma proseduru Beynəlxaq Valyuta Fondu ilə eynidir. Sazişin 59-cu maddəsində üzvlüyünü itirən keçmiş üzvlə bank arasında, eləcə də bankın fəaliyyətinə xitam verilməsindən sonra bankla üzv-dövlət arasında mübahisələrin tənzimetmə mexanimi əks olunub ki, bu halda da mübahisəyə baxmaq üçün arbitraj formalaşdırılır.

Tədqiqat prosesinin yekunu aşağıdakı kimi ümumiləşdirilmişdir:

- Əldə etdiyimiz nəticəyə görə beynəlxalq iqtisadi münasibətlərin fiskal və tənzimləyici bazasının formalaşmasının əsas oyunçularından biri kimi çıxış edən BVF, DB və eləcə də digər beynəlxalq maliyyə institutları iqtisadi sistemdə nüfuzlu beynəlxalq təsisatlar olmaqla, üzv ölkələrin milli iqtisadi inkişafında və onların sürətli , müasir tələblərə cavab verən şəkildə inteqrasiyasını təmin edən bir qurumdur və ölkələrin bu təşkilatlarla əməkdaşlığı ölkənin öz milli maraqlarını diqqətə alma şərtiylə məqsədəuyğundur.

- BVF bir sıra prinsipləri müəyyənləşdirir ki, bu da hər bir ölkə üzrə tənzimləmə proqramlarının işlənib hazırlanması zamanı əsas götürülür: tədiyyə balansında çətinlik yarandığı təqdirdə ölkə BVF-nun tələblərinə cavab verən siyasəti yeritməlidir; "Stend-bay" sazişi beynəlxalq saziş olmasa da, onu imzalayan ölkələr sazişin yerinə yetirilməsini bir beynəlxalq öhdəlik kimi qəbul edirlər; BVF maraqlı ölkənin milli xüsusiyyətləri, xüsusilə də sosial, siyasi, iqtisadi vəziyyətini mütləq nəzərə almalıdır və bu kursa həmişə əməl olunmasa da, əksər hallarda bu meylin qorunması son illərin təcrübəsinə aid edilə bilər və Azərbaycanla əlaqədar əməkdaşlıq strategiyasında ölkənin milli və iqtisadi xüsusiyyətləri və geosiyasi coğrafiyası nəzərdən qaçmamalıdır .

- Ölkənin beynəlxalq maliyyə təşkilatlarıyla münasibətlərdəki iqtisadi siyasəti milli maraqlar konseptində həyata keçirilməli və bu qurumların verdikləri kreditlərin şərtlərinin Azərbaycanın milli-iqtisadi sisteminin formalaşması prosesində ölkə maraqlarına maksimum uyğunlaşdırmalı və bununla əlaqədar tənzimlənən mexanizmlər və proqramlar dəqiqliklə işlənilməlidir .

- Bir qayda olaraq, bu qurumlardan alınan kreditlər büdcə kəsirinin maliyyələşməsi və digər cari xərclərə yönləndirilməməlidir. Kreditlərin həcminin müəyyən olunmuş limitdən artıq olmamasına diqqət göstərilməli, cari beynəlxalq hesablaşmalara və transferlərə məhdudiyyətlər tətbiq etməmək; xarici hesablaşmalarda ödəmələrə riayət etmək;

borcların geri qaytarılmasına ayrılan minimum valyuta ehtiyatları həcmini hər ilin dövlət büdcəsində göstərilməsinə diqqət edilməlidir. .

- BVF və Dünya Bankı öz fəaliyyətinin əsasən üç başlıca istiqamətini formalaşdırır: nəzarət və təhlil; maliyyələşdirmə; texniki kömək. Bu istiqamətdə aparılan və hazırlanan proqramların yönəldilməsi və reallaşdırılması inkişaf etməkdə olan və postsosialıst ölkələrində aparılan iqtisadi islahatların əsas prioritetərinə maksimum uyğunlaşdırılmalı və tətbiq nöqtələri ölkənin mövcud reallıqlarına adekvat olmalıdır.

-Bizim qənaətimizə görə beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanla əməkdaşlığı yüksələn xəttlə inkişaf edir. Belə ki, Azərbaycan Avropa və Mərkəzi Asiya ölkələri arasında Dünya Bankından Türkiyə və Qazağıstandan sonra ən çox kredit portfeli olan üçüncü ölkədir. Beynəlxalq maliyyə təşkilatları Azərbaycanın dünya iqtısadı məkanı ilə inteqrasiyasına müsbət təkan verməkdədir. Beynəlxalq maliyyə təşkilatlarının dəstəklədiyi layihələr ölkədaxili iqtisadi inkişaf üçün müsbət zəmin hazırlamaqdadır.

- Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında bu təşkilatların verdikləri tövsiyyələr, həyata keçirdikləri layihələr müsbət rol oynamaqdadır.

- Fikirimizcə, beynəlxalq maliyyə təşkilatlarının dəstəklədiyi ekoloji və infrastruktur layihələr həm ölkə vətəndaşlarının həyat səviyyəsinin yaxşılaşmasına, həm də ölkənin bir çox regional və beynəlxalq layihələrdə iştirakına müsbət təkan vermişdir. Beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın müsbət dinamikası dünya arenasında Azərbaycanın müsbət iqtisadi imicinin formalaşmasına köməklik etmişdir.

- Onu qeyd etmək olar ki, Azərbaycanın, xususilə, müstəqilliyin ilk illərindəki maliyyə çatışmazlığı probleminin ləngitdiyi infrastruktur layihələri bu təşkilatlardan alınan maliyyə resurslarının köməyi ilə reallaşmışdır.Keçmiş ittiffaqın suqutu , Qarabağ münaqişəsinin fəsadları, eyni zamanda müstəqiliyin ilk illərindəki siyasi xaos Azərbaycanın müstəqil bir iqtisadi infrastruktur formalaşdırmasına mane olmuşdur. 1994 cü ildən əldə edilən siyasi stabillik beynəlxalq maliyyə qurumlarının ölkəyə maraq göstərməsinə və kredit vəsaitlərinin ayrılmasına zəmin yaratmışdır.Qeyd etmək lazımdır ki, bu qurumlara üzvlük 1992- ci ildə olsa da, ilk güzəştli kredit çərçivəsində maliyyə vəsaitləri 1995-ci ildən etibarən ölkəyə verilməyə başlamışdır.

- Eyni zamanda bir çox nazirlik və dövlət qurumu beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq nəticəsində dünya standartlarına

uygun layihələrdə iştirak təcrübəsi qazanmışdır. Xüsusilə, iri həcimli layihələr Azərbaycanın dünyada həm iqtisadi , həm də strateji mövqeyini möhkəmlətmişdir.

- Azərbaycan hökuməti qeyri-neft sektorunda davamlı iqtisadi inkişafa təkan vermək üçün bir sıra proqramlar, o cümlədən, fiziki infrastrukturun bərpası və regionlar arasında fərqlərin aradan qaldırılması istiqamətində proqramlar həyata keçirmiş və regionların inkişafı dövlət programında nəzərə tutulan layihələrin maliyyələşdiriləsində beynəlxalq maliyyə təşkilatlarının imkanlarından istifadə etmiş və gələcəkdə də etməyi planlaşdırmaqdadır.

- 2014-ci ildə Azərbaycanın Neft Fondu və Mərkəzi Bankında 50 milyard ABŞ dollarından çox valyuta ehtiyatının olmasının, onun beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığının aktuallığına mane olmur. Azərbaycanın maliyyə imkânlarının artması, xüsusilə, neft gəlirlərinin idarə edilməsi məqsədi ilə yeni-yeni layihələrin həyata keçirilməsini zəruri edir. Azərbaycan bu gəlirlərin bir hissəsini xarici ölkələrdə müxtəlif layihələrin reallaşması üçün xərcləyir. Bu layihələrin reallaşması prosesində əğər hər hansı bir anlaşılmazlıq yaranarsa , Dünya Bankının Beynəlxalq İnvestisiyalar üzrə Mübahisələrin Həlli Mərkəzi və ya MİGA təşkilatının köməyindən faydalanması faydalı olacaqdır.

- Neft gəlirlərinin dayanıqlı idarəedilməsi prosesində beynəlxalq maliyyə təşkilatlarının məsləhətlərindən istifadə edilə bilər. Neft gəlirlərinin bir hissəsinin beynəlxalq təşkilatların səhmlərində və ya layihələrində qiymətləndirilə bilməsi potensialı da perspektivdə nəzərdə tutula bilər.

- Son illər Azərbaycanda neft-qaz gəlirləri sayəsində ÜDM-nin kəskin artması, yoxsulluğun azalması müşahidə olunur. Belə ki, 2001-ci ildə 49 faiz olan yoxsulluğun 2014-ci ildə 5 faizə düşməsi, əmək haqqlarında kəskin artımın olması, ünvanlı sosial yardım sisteminin formalaşması, sürətli inkişaf məhz neft-qaz gəlirlərinin artması sayəsində baş vermişdir. Hesablamalara görə, bu gəlirlərin növbəti onillikdə dəyişməz qalacağı, sonra isə azalacağı gözlənilir ki, buna görə də iqtisadiyyatın şaxələnməsini və qeyri-neft sektorunun inkişafını şərtləndirir və zəruri edir. Bu istiqamətdə də beynəlxalq maliyyə qurumlarının təcrübəsindən və maliyyə resurslarından istifadə ölkə üçün faydalı olacağı qənaətinə gəlinmişdir.

- Fikrimizcə hökumət ilə beynəlxalq maliyyə təşkilatları arasında zaman-zaman bəzi fikir ayrılıqları olsa da, bunun beynəlxalq maliyyə

təşkilatlarıyla gələcək əməkdaşlığa ciddi mənfi təsiri yoxdur. Dünya praktikasında da öz milli maraqlarından dolayı bu təşkilatlarla əməkdaşlıqlarında müəyyən problemləri ortaya çıxan çox sayda ölkə var və gələcəkdə də olabilər. Əsas məsələ anlaşmazlıq və fikir ayrılıqlarının ölkənin milli-iqtisadi maraqları çərçivəsi qorunmaqla tez bir zamanda ortadan qalxmasıdır.

- Bu təşkilatlarla əməkdaşlıq Azərbaycanda koorrupsiyanın azalmasında, işsizliyin və yoxsulluğun sürətlə aradan qaldırılmasında, iqtisadiyyatda struktur islahatlarının aparılmasında müsbət rol oynamaqdadır. Məlumdur ki, Azərbaycan 2010-cu ildən adambaşına düşən illik gəlirə görə (4.820 dollar) orta gəlirli ölkələr qrupundadır. 2011-ci ildən ölkəyə Dünya Bankının güzəştli maliyyəsi kəsilmişdir. Həmin vaxtdan Dünya Bankının digər bir qurumu olan Beynəlxalq Maliyyə Korporasiyası sərmayə proqramından faydalana bilsə də, bu qurumun verdiyi kreditlərin də faizi mövcud bank kreditlərindən çox aşağı olması onlardan istifadəni iqtisadi əsaslı edir.

- Bu qurumların Ölkə Tərəfdaşlığı Strategiyasının əsasını gələcək illərdə də ölkədə idarəetmənin və institusional imkanların gücləndirmək təşkil edir.Eyni zamanda ölkədə özəl sektorun gücləndirilməsi, qeyri - neft sektorunun UDM-dakı payının azaldılması, regionların iqtisadi vəziyyətinin yaxşılaşdırılması və regionlararası fəqliliklərin aradan qaldırılması beynəlxalq maliyyə təşkilatlarının Azərbaycanla gələcək əməkdaşlıq strategiyasının əsasını təşkil edir.Eyni zamanda ekologiya və təhsil sahəsinə yönəldilən bir sıra layihələr də, gələcək əməkdaşlıq strategiyasında yer almaqdadır.

- Fikrimzcə, qeyri-neft sektorunun inkişafının ixrac yönümlü iqtisadi inkişaf modelinə əsaslanması mühüm iqtisadi əhəmiyyətə malikdir. Hazırda bu modeldən bir çox postsosialist ölkələri müvəffəqiyyətlə istifadə edirlər. Azərbaycan şəraitində ondan idxalı əvəz edən inkişaf modeli ilə tarazlı istifadə edilməsi daha əhəmiyyətlidir. Çünki, mühüm növ məhsulların ixracda xüsusi çəkisinin təhlilinə əsaslanaraq bir sıra sahələrin Azərbaycanda inkişafını məqsədəuyğun hesab etmək olar.Bu istiqamətdə beynəlxalq maliyyə qurumlarının kredit və digər texniki dəstəyindən istfadə etmək faydalıdır.

- Beynəlxalq Maliyyə Təşkilatlarının hesabatlarına görə Azərbaycanın inkişaf göstəriciləri bir sıra sahələrdə çox müsbət nəticə almış, adambaşına düşən illik gəlir 2005-ci ildə 1.270 dollardan 2014-cu ildə 7.350 dollara qalxmış (Atlas metodu vasitəsilə hesablanıb), Dövlət

Neft Fonduna yatırımlar etməklə neft gəlirlərinin daha da sərfəli idarəsinə və gələcək nəsillərə saxlanmasına cəhd edilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan 2009-cu ildə Mədən Sənayesi üzrə Şəffaflıq Təşəbbüsünə əməl etdiyi təsdiqlənən ilk ölkə olmuşdur. Bununla yanaşı, biznes qurmaq yönündə əhəmiyyətli proqres qeydə alınmış, 2007-ci ildə biznesin qeydiyyata alınması müddəti 51 gün idisə, 2014-cu il Biznes Qurma Hesabatında 8 günə düşmüş və bütün bu müsbət göstəricilər yeni əməkdaşlıqlar üçün əlverişli zəmin yaratmışdır.Bütün bunlar beynəlxalq maliyyə təşkilatların hesabatının diqqətə alaraq Azərbayana investisiya yatırmaq istəyən xarici investorların sayını və investisya həcmini artırmışdır. Müstəqilliyin ilk illərində əsasən neft sektoruna maraq göstərən xarici sərmayədarlar artıq son illərdə qeyri-neft sektoruyla da maraqlanmış və bu istiqamətdə investisiyaların sayı və həcmi artmışdır.

- Beynəlxalq maliyyə təşkilatlarının aqrar sektora investisiya layihəsi ölkənin iqtisadi və sosyal inkişafına töhfəsinə yaxşı nümunədir. Bu layihələr çərçivəsində kənd infrastrukturunda bərpa işləri görülmüşdür ki, bu da 430 təsərrufatı əhatə edən 1 milyondan çox əhalinin fayda əldə etməsi ilə yekunlaşmışdır. Nəticədə bu icmalarda kənd təsərrüfatı sektorunun məhsuldarlığı və dolayısıyla da fermerlərin qazancları artmışdır.
- DB-nın hər il hazırladığı-"Doing Business" Biznesin Təşkili İndeksləri ilə Azərbaycan 2009-cu ildən 10 sahənin yeddisi ilə biznes qaydalarının nizamlanmasında dünyanın qabaqcıl islahatçı ölkəsi olmaqda davam edir və burada inkişaf, o cümlədən biznesin başlanması üçün vahid pəncərə prinsipi, əmlakın vahid qeydiyyatı və azpaylı səhmdarların qorunması kimi nailiyyətlər nümayiş etdirilir. 2015-ci ilin "Doing Business" hesabatına görə, Azərbaycan ən çox islahat aparan 10 ölkədən biridir. Azərbaycan daşınmaz əmlakın qeydiyyatının sadəliyinə görə dünyada 10-cu, biznesə başlamağa görə isə 11-ci yerdədir. Bu da ölkəyə xarici sərmayənin gəlməsinə müsbət təkan verməkdədir.Təsadüfü deyil ki sadəcə 2014 çü ildə Azərbacan iqtisadiyyatına 27 milyard dollar investisiya yatırılmışdır ki, bunun da 11 milyardı xarici sərmayədir.
- Azərbaycan qlobal iqtisadi böhranın öhdəsindən nisbətən yaxşı gəlsə də, ancaq bu proses göstərdi ki, iqtisadiyyat şaxələndirilməlidir, sərbəst bazar iqtisadiyyatına əsaslanan iqtisadi inkişaf siyasəti, sosial müdafiə sisteminin gücləndirilməsi siyasəti daha da intensivləşdirilməli və bu istiqamətdə beynəlxalq maliyyə təşkilatlarının təcrübə və resurslarından maksimum faydalanılmalıdır**.** Xüsusiylə neft qiymətlərinin

azalması fondunda devalvasiya və büdcə xərclərində qənaət , qeyri-neft sektorunun gücləndirilməsi və büdcənin neftdən asılılığının minimuma endirilməsi zəruridir.Bu istiqamətdə beynəlxaq maliyyə təşkilatlarının maliyyə imkanlarından və təcrübəsindən istifadə faydalı olardı .

- Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olaran neft və təbii qaz ehtiyatlarının hasilatından və satışından əldə olunmuş gəlirlərin bir hissəsini qeyri-neft sektorunun inkişafına yönəltməklə ölkə iqtisadiyyatının ənənəvi sahələrini yenidən qurulur, həm də informasiya-kommunikasiya texnologiyaları, turizm və digər bu kimi yeni istiqamətlər müəyyənləşdirilir və inkişaf etdirilir. Son illərdə ümumi daxili məhsulun istehsalında qeyri-neft sektorunun çəkisi artmaqda və 2014-cü ildə 60 faizə çatmışdır. Bu isə Azərbaycan iqtisadiyyatının şaxələndirildiyini və neft amilindən asılılığının azaldığını göstərir.Dünyanın mötəbər iqtisadi və maliyyə qurumlarının hesabatlarında da Azərbaycanın uğurları xüsusi qeyd olunur. Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik indeksində Azərbaycan 144 ölkə arasında 38-ci yerə yüksəlmiş və ardıcıl olaraq 5 ildir ki, MDB ölkələri arasında birincidir

-Fikrimizcə, dövlət borcunun miqdarından çox onun istifadə təyinatı və strukturu əhəmiyyətlidir.Dolayısıyla Azərbaycanın ÜDM nin 10 faizindən az olan bu borcların iqtisadi mənada təhlükəli xarakteri olmaması müsbət aspekt olsa da, bu vəsaitlərin maksimum səmərəli istifadəsi vacibdir.

**Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktik təkliflər aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Süleymanov E . " Azərbaycan iqtisadiyyatının beynəlxalq iqtisadi məkana inteqrasiya strategiyaları", AMEA-nın İqtisadiyyat İnstitutu. Elmi əsərlər. № 1.2009, s 125-126,
2. Elchin Suleymanov, "Problems of development of mutual relation of Azerbaijan with the international financal organizations after independence", Ukrayna, Культура народов Причерноморья - 200, səhifə/səhifə aralığı: 64-68, Noy 2011, url: [1]
3. Elçin Süleymanov. "Azerbaycanin Bağımsızlık Sonrası Serbest Piyasa Ekonomisine Uyum Sürecinde IMF ile İlişkileri", Türkiyə, II. International Congress of the Social Science, səhifə/səhifə aralığı: 981-994, Dek 2009, url: [2]
4. Elçin Süleymanov, "Azerbaycanın Bagımsızlık Sonrası Uluslararası Maliye Kurumları ile ilişkileri", Qırğizistan, II.

International Congress of the Social Science, səhifə/səhifə aralığı: 125, Okt 2008, url: [3]

5. Süleymanov E. "Ümumdünya Ticarət Təşkilatı və Azərbaycanın bu təşkilata üzvülük prosedurası", AMEA-nın İqtisadiyyat İnstitutu, Elmi əsərlər. №3 1.2008.s 412-419,
6. Elçin Süleymanov, "İqtisadi inteqrasiya və Azərbaycanın bu inteqrasiyada yeri", Azərbaycan, Beynəlxalq iqtisadi əlaqələrin inkişafında regionların rolu və əhəmiyyəti", Beynəlxalq elmi konfrans, Azərbaycan Resp. Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti, Naxçıvan, 2009, səhifə/səhifə aralığı: 5, Apr 2010
7. Elçin Süleymanov. "Azərbaycanın müstəqillikdən sonra beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişaf problemləri", Azərbaycan, Dayaniqli İnkişaf Və İdarəetmə Modelləri:Nəzəriyyə Və Praktika, səhifə/səhifə aralığı: 4, Dek 2011, url: [4]
8. Elçin Süleymanov, "Azerbaycanin Bağimsizlik Sonrasi Serbest Piyasa Ekonomisine Uyum Sürecinde İMF İle İşbirliyi Stratejisi ", Azərbaycan, "Journal Of Qafqaz University" - 24, 2008, səhifə/səhifə aralığı: 169-179, Apr 2008, url: [5]
9. Elçin Süleymanov, "Azerbaycan'in Uluslararasi Mali Kurumlarla İlişkileri", Azərbaycan, "Journal Of Qafqaz University" - 18, 2006, səhifə/səhifə aralığı: 121-126, Okt 2006, url: [6]
10. Elçin Süleymanov, "Müstəqillik Sonrasi Azərbaycan Ve Dünya Banki Münasibətləri", Azərbaycan, "Azərbaycan Müstəqillikdən Sonra "Azərbaycan Respublikasi Təhsil Nazirliyi Qafqaz Universiteti 3-4 mart 2003, səhifə/səhifə aralığı: 102-104, Mar 2003, url: [book_view=97 ]
11. Elçin Süleymanov, "Dünya Ticarət Təşkilati - Azərbaycan Münasibətləri", Azərbaycan, Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya I beynəlxalq Konfrans 12-13 May 2003 Qafqaz Universiteti, səhifə/səhifə aralığı: 18-20, May 2003, url: [book_view=100 ]
12. Elçin Süleymanov, "Azərbaycan Və Avropa Yenidənqurma Və İnkişaf Banki Münasibətləri", Azərbaycan, \"Azərbaycan Müstəqillikdən Sonra \"3-4 mart 2003, səhifə/səhifə aralığı: 100-102, Apr 2003, url: [book_view=97 ]
13. Elçin Süleymanov, "Dünya Bankinin Azərbaycan Respublikasi İlə Əməkdaşliq Strategiyasi ", Azərbaycan, "Journal of Qafqaz Universityı" - 22, səhifə/səhifə aralığı: 104-112, Noy 2008, url: [7]

14. Elchin Suleymanov, Cihan Bulut, Fakhri Hasanov. Azerbaycan’ın Piyasa Ekonomisine Geçiş Sürecinde Karşılaştığı Sorunlar ve Çözüm Arayışları, Problems Encountered during the Transition to Market Economy in Azerbaijan and Solution Attempts, International Conference on Eurasian Economies 17-18 September 2013 – St. Petersburg, RUSSIA [8]
15. Elchin Suleymanov, Osman Nuri Aras, Fakhri Hasanov. Trans-Anadolu Doğal Gaz Boru Hattı Projesi’nden Ekonomik ve Stratejik Beklentiler, Economic and Strategic Expectations of Trans-Anatolian Natural Gas Pipeline Project. International Conference on Eurasian Economies 17-18 September 2013 – St. Petersburg, RUSSIA [9]
16. Elchin Suleymanov, Ayaz Zeynalov, Rufat Mammadov. "Analyzing And Valuing Of The Existing Situation Of Export Multiplication In The Azerbaijan Republic" International Conference on Energy, Regional Integration and Socio-economic Development, Ecomod-2013, September 5-6, 2013 [10]
17. Elchin Suleymanov, Fakhri Hasanov "Impact Of Azerbaijan Investment In Enegy Sector Of Turkey On Economic Collabaration Of These Countries“EconAnadolu 2013: Anadolu International Conference in Economics III June 19-21, 2013, Eskisehir, Turkey. [11]
18. Elçin Süleymanov, Osman Nuri Aras. "Bağımsızlık Sonrası Azerbaycan Türkiye Ekonomik İlişkilerinin Sektörel Değerlendirilmesi", Türkiyə, International Symposium on Regional Cooperation and Development October 17-20, 2012 Erzurum, Turkey, səhifə/səhifə aralığı: 79-99, Okt 2012, url: [12]
19. Elçin Süleymanov, Osman Nuri Aras. "The Importance of Azerbaijan's Energy Revenues in its Exports Volume and the Effects on the National Economy", Qazaxıstan, International Conference on Eurasian Economies 11-13 October 2012 – Almaty, Kazakhstan, səhifə/səhifə aralığı: 225-232, Okt 2012, url: [13]
20. Elçin Suleymanov, Osman Nuri Aras, Ayaz Zeynalov, "Does Oil Income Impede Democratization in Muslim–Majority Countries?", Türkiyə, Social Sciences Research Society (SOSRES) 5. International Conference On Social Sciences (ICSS)05-06 October 2012 Izmir - Turkey, səhifə/səhifə aralığı: 12-21, Okt 2012. url: [14]
21. Elçin Süleymanov, Cihan Bulut. “Azerbaycan’ın Hollanda Hastalığı Problemini Önleme Stratejilerinde Türkiye İle Yapılan

Ekonomik İlişkilerin Önemi", Türkiyə, International Symposium on Regional Cooperation and Development on October 17-20, 2012 (Erzurum, Turkey), səhifə/səhifə aralığı: 99-117, Okt 2012, url: [15]

22. Elchin Suleymanov, Fuzuli Aliyev, "Alternative Development Strategies for Azerbaijan Economy and Sectoral Analysis", Gürcüstan, 7th Silk Road Conference: Challenges and Opportunities of Sustainable Economic Development in Eurasian Countries Tbilisi- Batumi 24-26 May. 2012, səhifə/səhifə aralığı: 53-57, May 2012, url: [16]
23. Elçin Süleymanov, Osman Nuri Aras, ""The Role and Importance of Turkish Entrepreneurs ın Economic Development and Reconstruction of Azerbaijan", Qırğizistan, III Uluslararası Girişimcilik Kongresi, səhifə/səhifə aralığı: 17-27, May 2011, url: [17]
24. Elçin Süleymanov, Ayaz Zeynalov, "Azərbaycan Respublikasının Xalis İxrac Funksiyası və Xarici Ticarət Multipikatoru", Azərbaycan, Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya III beynəlxalq Konfrans 15-17 Oktyabr 2010 Qafqaz Universiteti, səhifə/səhifə aralığı: 124-125, Okt 2010, url: [book_view]
25. Ph.D. Candidate Elchin Suleymanov (Qafqaz University, Azerbaijan), Prof. Dr. Cihan Bulut (Qafqaz University, Azerbaijan),Assoc. Prof. Dr. Fakhri Hasanov (Qafqaz University, Azerbaijan)"The Impact of the Oil Revenues on the Standard of Living in Oil-Exporting Countries of the Former Soviet Union" International Conference on Eurasian Economies 1-3 July 2014 – Skopje, MACEDONIA .[18]
26. Elçin Süleymanov. "Electronic commerce and it's probable effects on Azerbaijan Economy", Application Of Information And Communication Technologies, səhifə/səhifə aralığı: 1-5, Dek 2009, url:[19]
27. Elçin Süleymanov, Ayaz Zeynalov, "Azərbaycan Respublikasının Xalis İxrac Funksiyası və Xarici Ticarət Multipikatoru", Azərbaycan, Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asya III beynəlxalq Konfrans 15-17 Oktyabr 2010 Qafqaz Universiteti, səhifə/səhifə aralığı: 1113-1118, Okt 2010, url: [book_view=73 ]
28. Elçin Süleymanov, "Qloballaşan dünyada e-ticarət və Azərbaycanda tətbiqinin iqtisadi təsirləri", Azərbaycan, Bakutel 2007-`Regional İnnovation zone.problems and solutions., səhifə/səhifə aralığı: 262-265, Noy 2007, [20]

29. Elçin Süleymanov, "İslam Ölkələri Arasinda İqtisadi Əməkdaşlıq", Azərbaycan, Yaxın və Orta Şərq:Dünəni, Bu Günü, Sabahı`Beynəlxalq Elmi Konfrans.AMEA, səhifə/səhifə aralığı: 71-79, Okt 2005, url: [21]
30. Elçin Süleymanov, "Baku-Ceyhan boru kemerinin ekonomik ve kültürel boyutu", Azərbaycan, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin beynəlxalq və regional əhəmiyyəti Baki 2002, səhifə/səhifə aralığı: 64-67, İyn 2002
31. Elçin Süleymanov, Füzuli Əliyev, "E-Commerce And Probable

    Effects On Azerbaijan Economy", Azərbaycan, Journal of Qafqaz University, Economics and Administration - 32, səhifə/səhifə aralığı: 98-104, Dek 2011, url: [22]
32. Elçin Süleymanov, Osman Nuri Aras. "1929 Və 2008 Böhranlarinin Makroiqtisadi Səbəb Və Nəticələr Baximindan Müqayisəsi ", Azərbaycan, “Journal of Qafqaz Universityı” - 30, səhifə/səhifə aralığı: 45-63, Dek 2010, url: [23]
33. Elçin Süleymanov, Osman Nuri Aras, Ayaz Zeynalov, "Analyzing and Valuing of the Existing Situation of Export and Import of Non-Oil Sector in the Azerbaijan Republic", Amerika Birləşmiş Ştatları, Social Science Research Network - 29, səhifə/səhifə aralığı: 50-60, İyn 2010, url: [24]
34. Elçin Süleymanov, Ayaz Zeynalov, "The Influence of the Global Financial Crisis to Azerbaijani Economy", Amerika Birləşmiş Ştatları, Political Economy: International Political Economy eJournal - CMBO - 28, səhifə/səhifə aralığı: 111-120, Dek 2009, url: [25]
35. Elçin Süleymanov,Ayaz Zeynalov, "Azerbaycan Ekonomisinin Bağimsizlik Sonrasi Makroekonomik Göstericilerinin Ekonomik İstikrar Açisindan Genel Değerlendirilmesi", Azərbaycan, “Journal of Qafqaz Universityı” - 26, səhifə/səhifə aralığı: 137-143, Okt 2009, url: [26]
36. Elchin Suleymanov, Osman Nuri Aras, "Common Currency and European Common Monetary System", Azərbaycan, journals.indexcopernicus.com - 16(16), səhifə/səhifə aralığı: 55-65, May 2005, url: [27]

37. Elçin Süleymanov, Osman Nuri Aras, "Avropa Valyuta Birliyinin İqtisadi Təsirləri ", Azərbaycan, "Journal of Qafqaz University" - 16, 2005, səhifə/səhifə aralığı: 1-10, Apr 2005, url: [28]
38. Elçin Süleymanov, Osman Nuri Aras, "Dünya Bankinin Azərbaycanda Həyata Keçirdiyi İnfrastruktur Layihələri", Azərbaycan, "Journal Of Qafqaz University" - 15, 2005, səhifə/səhifə aralığı: 17-27, Apr 2005, url: [29]
39. Elçin Süleymanov,"Azerbaijan-IMF Partnership After The Independence Of Azerbaijan", Azərbaycan, "Journal of Qafqaz Universityı" - No 9/2002, səhifə/səhifə aralığı: 190-196, url: [30]
40. Elçin Süleymanov, "Müstəqillik Sonrası Azərbaycan-Dünya Bankı Münasibətləri ", Azərbaycan, "Journal Of Qafqaz University" - 10, 2002, səhifə/səhifə aralığı: 132-147, Apr 2002, url: [31]
41. Elchin Suleymanov, Ayaz Zeynalov, Elvin Alirzayev, "The Influence of the Global Financial Crisis to Azerbaijani Economy", ABŞ, səhifə/səhifə aralığı: 1-12, Macroeconomics: Prices, Business Fluctuations, & Cycles ejournal Vol. 6, No. 5: Jan 11, 2013 - Yan 2013, url:[32]
42. Elchin Suleymanov, Ruslan Huseyinov, "International Students' Contributions to Swedish Economy", Amerika Birləşmiş Ştatları, səhifə/səhifə aralığı: 17-26, International Finance eJournal Vol 4, Issue 180, December 17, 2012 - Dek 2012, [33]
43. Elchin Suleymanov, Fuzuli Aliyev, "Alternative Development Strategies for Azerbaijan Economy and Sectoral Analysis", Amerika Birləşmiş Ştatları, səhifə/səhifə aralığı: 17-24, Global Business Issues e-journal Vol. 2, No. 220: Dec 19, 2012 - Dek 2012, url:[34]
44. Elçin Suleymanov, Osman Nuri Aras, Ayaz Zeynalov. "Does Oil Income Impede Democratization in Muslim–Majority Countries?", Türkiye.İnternational Journal Of Social Sciences And Humanity Studies Vol 4, No 2, 2012 Issn: 1309-8063 (Online) [35]
45. Elçin Süleymanov, Osman Nuri Aras, Ruslan Huseynov "The Importance of Azerbaijan's Energy Revenues in its Exports Volume and the Effects on the National Economy" International Journal of Business and Social Science Vol. 4 No. 6; June 2013 USA [36]
46. Suleymanov E.B. , Alirzayev E.V. "Government Role Durıng The Global Fınancıal Crısıs "World Research Journal of Economics ISSN: 2277-6028, Volume 2, Issue 1, 2013, pp.-13-21. [37]

47. Suleymanov E.B, Alirzayev E. "The Global Fınancıal Crısıs and goverment"Istituto Einaudi, Banca d'Italia. İtaly, http://www.istein.org/site-content/199-the-great-financial-crisis-of-2007-09/15494-government-role-during-the-global-financial-crisis.html
48. Elçin Suleymanov, Osman Nuri Aras, Ayaz Zeynalov, Fakhri Hasanov. Problems Encountered during the Transition to Market Economy in Azerbaijan and Solution Attempts",Munich Personal RePEcArchive . https://mpra.ub.unimuenchen.de/secure/50725/1/681.pdf
49. Elçin Süleymanov, Osman Nuri Aras, Ruslan Huseynov "The Importance of Azerbaijan's Energy Revenues in its Exports Volume and the Effects on theNationalEconomy" http://econpapers.repec.org/paper/pramprapa/50723.htm
50. Elçin Suleymanov, Osman Nuri Aras, Fakhri Hasanov, Economıc and Strategıc Expectations from Trans Anatolıan Natural Gas Pipeline Project.University Library of Munich, Germany. http://mpra.ub.uni-muenchen.de/52187/1/MPRA_paper_52187.pdf
51. Elchin Suleymanov, Ayaz Zeynalov, Elvin Alirzayev, The Analisis Of Impact Of The Global Financial Crisis On Development Azerbaijan Economy, Journal Of Qafqaz University-Economics and Administration 2013.Volume 1, Number 1 Pages 114-123 [38]

**E.B.Suleymanov**

**Developing Relations of Azerbaijan with International Financial Organizations**

**SUMMARY**

Since international economic relations and world economic sistem have also been globalized, international and regional financial organizations have an important role in regulation of economic processes, with which Azerbaijan started cooperating in 1995. Our study assumes that many sectors are still under-development and oil industry makes 50% of the GDP of Azerbaijan. Therefore, it is still essential that non-oil and social sectors development attracts oil incomes and investments of international financial organizations.

Considering all the points noted above, the research aims to study practical and scientific aspects of relations with international financial organizations and show potentials for future developments of relations with financial organizations based on the past experience of Azerbaijan.

The first chapter covers the essence and role of international financial organizations in the world economy, economic and social policy of international financial organizations and their operational principles.

The second chapter discusses the analysis of potential relations with international financial organizations, directions and dynamics of international financial relations and organizational problems of relations with international financial organizations.

The third chapter covers the study of development of relations with international financial organizations, perspective role of programs in the structural development of the country and regulation of international economic conflicts caused by international finacial organizations.

The conclusion provides the results of the research and scientific suggestions and recomendations.

Э. Б.Сулейманов

**Проблемы развития отношений Азербайджана с международными финансовыми организациями**

## РЕЗЮМЕ

Процессы глобализации объективно обуславливают повышение роли международных финансовых организаций в области международных экономических отношений и в системе мировой экономики. Азербайджан стал членом международных финансовых организаций после обретения независимости. Сотрудничество с ними началось с 1995 г. и успешно продолжается.

Основной задачей диссертации является комплексное теоретическое и практическое исследование сотрудничества Азербайджана с международными финансовым организациями и разработка на этой основе научно обоснованных рекомендаций в области дальнейшего углубления потенциала этого сотрудничества.

В первой главе «Институциональные основы глобальной экономической системы» исследуются проблемы регулирования мировой экономики, отмечается их важность, характеризуются механизмы деятельности международных финансовых организаций, анализируются закономерности формирования и развитие отношений стран переходной экономики с международными финансовыми организациями в условиях глобализации.

Во второй главе «Комплексный анализ отношений Азербайджана с международными финансовыми организациями», исследуется роль МФО в обеспечении устойчивого развития Азербайджана, динамика развития отношений Азербайджана с Всемирным Банком, характеризуется значение отношений с другими международными финансовыми организациями для решения геоэкономических проблем Азербайджана.

В третьей главе «Перспективы развития отношений Азербайджана с международными финансовыми организациями», характеризуются проблемы совершенствования сотрудничества Азербайджана с международными финансовыми организациями, даются практические рекомендаций в области дальнейшего углубления потенциала этого сотрудничества

В заключении даны выводы и предложения, полученные в результате проведенного исследования.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**СУЛЕЙМАНОВ ЭЛЬЧИН БАХМАН оглы**

# ПРОБЛЕМЫ РАЗВИТИЯ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА С МЕЖДУНАРОДНЫМИ ФИНАНСОВЫМИ ОРГАНИЗАЦИЯМИ

**Специальность: 5310.01- "Мировая экономика"**

**А В Т Р Е Ф Е Р А Т**

**диссертации по присуждению научной степени доктора философии по экономике**

**БАКУ-2015**